



# İftixar və qürur mənbəyimiz - “Əkinçi” qəzeti...

**Təqvimimizdə elə günlər var ki, onun gəlişini, həyatımıza qədəm qoyacağını maraqla gözləyirik. Çünki həmin günlər hamımız üçün çox doğmadır. Belə əziz və doğma günlərdən biri də 22 iyul 1875-ci ildir. Bu gün bizim üçün ona görə doğmadır ki, həmin tarixdə milli mətbuatımızın bünövrəsi qoyulub. Xalqımız və cəmiyyətimiz üçün dəyərliliyini, mahiyyətini və əhəmiyyətini nəzərə alıb deyə bilərik ki, 22 iyul 1875-ci il tariximizə qızıl hərflərlə yazılıb.**

Bu tarix hamımızın iftixar və qürur mənbəyidir. Hamımızın fəxr etiyimiz həmin günü tariximizə dövrünün görkəmli ziyalısı, millətinin gələcəyini düşünən Həsən bəy Zərdabi yazıb. Özü də şərəf dolu bu tarixi qeyrətinin qətiyyəti ilə, ürəyinin qanı ilə, qəlbinin istəyi ilə, dövrünün tələbi, xalqına olan sonsuz sevgi ilə yazıb. Yazıb ki, övladı olduğu xalqı dünyanın başqa xalqlarından geri qalmasın. Dövrlə, vaxtla ayaqlaşsın, zamanın nəbzini tutsun. Bilikli, bacaıqlı, elmli olsun, dünyanın tez-tez dəyişən gədişindən geri qalmasın.

Yaşadığı dövrün qaranlıqlarına gur işıq salmaq üçün Həsən bəy Zərdabi üzləşdiyi bütün çətinliklərdən keçərək həmin tarixi gündə şəxsi vəsaiti hesabına “Əkinçi” qəzetini nəşr etdirib. Elə həmin gündən də Zərdabi sözün həqiqi mənasında mətbuatımızın əkinçisinə çevrilib. Ürəyi millətinin sabahı üçün döyünən, qəlbi xalqının gələcək taleyi ilə vuran Həsən bəy “Əkinçi”ni nəşr etdirməyə başlayanda elə də yaşlı deyildi. Onun 33 yaşı var idi. Həmin çağlarda Həsən bəy ömrünün ən qaynar, ən gözəl vaxtlarını yaşayırdı. Rusiyada ali təhsil almış 33 yaşlı bu gənc əlində olan var-dövlətini millətini oyatmaq, xalqının qabaqcıl biliklərə yiyələnməsi üçün ziya vermək işinə sərf etdi. Qarşılaşdığı çətinliklərə sinə gərərək müqəddəsdən müqəddəs, işıqlıdan-işıqlı, nurludan-nurlu bir yola çıxdı.

“Əkinçi”nin nəşr olunduğu illərdə heç də hamı təhsilli, elmi deyildi. Cəmiyyətdə cahillik, avamlıq və cəhalət hökm sürürdü. Xalq elmdən, təhsildən çox-çox uzaq idi. Həmin dövrdə elmə, təhsilə maraq göstərənləri barmaqla saymaq olardı. Demək olar ki, mətbuatın, maarifin mahiyyətini dərindən anlayanlar yox idi. Bəlkə də, var idi, amma özlərinə əziyyət verib anlamaq istəmirdilər. Belələri ömürlərini, var-dövlətlərini bu müqəddəs işə sərf etmək fikindən uzaq idilər. Həsən bəy Zərdabi yaşadığı həmin dövrü belə təsvir edirdi: “Hər kəsi çağırıram gəlməyir, göstərirəm görməyir, deyirəm qanmayır. Axırda gördüm ki, onları haraylayıb çağırmaqdan, onlara deməkdən başqa bir qeyri əlac yoxdur. Olmaz ki, mənim sözümü eşidənlərdən heç biri qanan olmasın.”

Cəmiyyətdə avamlığın, cəhalətin hökmranlıq etdiyi bir vaxtda Zərdabi qanan, düşünməyi bacaran, zəmanəni anlayan insanları sanki çıraqla axtarırdı. Uzaqgörən düşüncə sahibi, işıqlı insan elə bu məqsədlə də “Əkinçi”si ilə çətin bir yola çıxmışdı. Anlamaq dərdi təkcə H.Zərdabini deyil, böyük ədibimiz Cəlil Məmmədquluzadəni də bütün yaradıcılıq və ömrü boyu düşündürmüşdü. Xalqını sevən bu böyük yaradıcı insanlar yaxşı bilirdilər ki, cəhaləti, avamlığı yalnız elmlə, təhsillə insanların beynindən silmək olar. Elmə, biliyə yüksək dəyər verən Həsən bəy zəmanədən gileylənərək yazırdı ki, elmsiz bu zəmanədə dolanmaq mümkün deyil. Ələlxüsus, bizim yerlərdəki qonşularımız elm təhsil edib günü-gündən irəli gedir, bizim əlimizdə olan mülki-malımıza sahib olurlar və az bir vaxtdan sonra biz onlara rəncbərlik edib, onların malını daşımaqdan ötrü kirəkeşlik edəcəyik.

Bax, belə çətin bir zəmanədə uzaq Rusiyada böyük əziyyətlər bahasına ali təhsil almış 33 yaşlı Həsən bəy Zərdabi qəzet çap etməyi, xalqını avamlıqdan, savadsızlıqdan çıxarmağı qarşısına məqsəd qoyur. Həmin günlərdə Zərdabi yazırdı: “Həqiqət, elm təhsil etməyə başlayan tayfa qaranlıq otağın qapısını açıb çölə çıxan kimidir ki, bu zaman günün işığı onun gözlərini nurlandırmaqdan başqa, otağın da içinə daxil olub orada olan şeyləri artıq işıqlandırıb bir qeyri surətə salır.” Bax, belə bir mürəkkəb dövrdə “Əkinçi” də qaranlığa, cəhalətə açılan işığı və geniş qapı oldu. Bu qapıdan düşən işıq, nur insanların yatmış şüurlarını oyatdı, dünyagörüşlərini təzələdi, fikirlərinə yenilik toxumları səpdi. Zaman-zaman onları cəhalətdən, avamlıqdan, cahillikdən uzaqlaşdırdı.

Zərdabi avamlığın, cəhalətin tüğyan etdiyi bir vaxtda qəzetin gücünə, sözün qüdrətinə, fikrin işıqlığına inanırdı. Və elə bu inamla da yazırdı: “...Belə də qəzet çıxarmaqdan savay qeyri bir əlac yoxdur ki, kağızın üstə yazılmış doğru sözlər qapı-pəncərələrdən o iman mənzillərinə çata bilsin. Heç olmaz ki, doğru söz yerdə qalsın. Hər ildə on qəzet oxuyandan birisi oxuduğunu qansa, onların qədəri ilbəil artar.”



Əkinçisayağı Əkinçi, № 57, 27 aprel 2015-ci il

Fi 8 rəcəb Sənə 1436
Qəzetin qiyməti Bir sənəliyi - 3 manat
Altı aylıq 1 manat 50 qəpik
Poçt xərci
Qəzet basdıran ilədir
Hər kəs öz işləri barəsində
bu qəzetdə elannamələr basdıra bilər.
Belə elannamələr basdıran kəslər
lazımdır ki, elannamənin
hər kəlməsinə iki qəpik versinlər.

Əkinçi

Hər kəs bu qəzetdə hər bir qisim əhvalat barəsində məktublar basdıra bilər və əgər bir şəxs bu günə məktubat həmişə göndərməyə xahiş etsə ol kəs üçün qəzet müftə göndərilir. Əgər bu məktubları məzmunu qəzetin əvvəlinci nömrəsinin daxiliyyəsində adlanan əhvalatlardan savayı əhvalat ola ya bu məktublarda dövlətiəliyyə və ya qeyri dövlətlərə ya məzhəbə ya bir isman adlanan şəxsə dəyən sözlər ola ol vaxtı qəzetin münşisində ixtiyar var o məktubu çap etməsi, ya o nalayiq sözləri bərkənar edib sonra çap etsinlər.

Qəzet çap olunur Qafqaz vilayətinin Badkubə şəhərində. Hər kəs elannamələr və məktubat göndərmək xahiş etsə, qəzeti çap etdirənin adına göndərsin. Badkubə Slavyan Universtetinin Jurnalistika fakültəsinin tələbələrinin “Əkinçi” qəzetinin 140 illiyi münasibəti ilə xüsusi nəşri.

DAXİLİYYƏ

Ərz edərim ki, bu qəzeti Həsən bəy Zərdabi çap etdirib. Bunu çap etdirməyimizə səbəb “Əkinçi”nin davamçıları olduğumuzu bildirməkdir. Əhli-camaat dır. Xamis, yuxarıda zikr olan xəbərlərdən savayı hər bir vilayətdə aşkar olan məşhur naxoşluq, ya yanğı, ya oğurluq və ya qeyri qisim xəbərlərdən

Millətini cəhalətdən qurtarıb elm və təhsil yoluna gətirəcəyini düşünən Həsən bəy Zərdabi böyük həvəs və qətiyyətlə maarifçilik işinə başladı. Amma o zamanlar qəzet buraxmaq da asan iş deyildi. Bunun üçün bir çox çətin məsələlər həll olunmalıydı, keçilməz keçidlərdən keçilməliydi. Yaşadığı günlərin ağrı-acılarla dolu mənzərəsini Zərdabi belə təsvir edirdi: “Qəzeti necə çıxardım? Pul yox, çapçı yoldaş yox, kitabxana yox, hürufat yox, əmələ yox. Bir-iki yüzdən yuxarı da oxuyan olmayacaq. Dövlət tərəfindən izn almaq da ki, bir böyük bəladır.”

Qayğıları, problemləri saysız-hesabsız idi. Qarşılaşdığı çətinlikləri mərhələ-mərhələ dəf edən Həsən bəy Zərdabi 1875-ci il iyul ayının 22-də böyük tarix yazaraq, milli mətbuatımızın bünövrəsini qoydu, “Əkinçi” qəzetinin ilk nömrəsini buraxdı.

Beləcə, “Əkinçi” milli mətbuatımızın ilk qaranquşu oldu. Təəssüflər ki, qəzetin ömrü o qədər də uzun olmadı. Nəşri iki il davam elədi. Amma bu iki il ərzində qəzet çox iş gördü. Onun səhifələrində həm kənd təsərrüfatının müxtəlif sahələrinə dair sadə xalq dilində maraqlı məlumatlar, həm də təbabətə, fiziologiyaya aid dəyərli məlumatlar dərc olunurdu. Qəzet beş şöbədən ibarət idi. “Əkinçi”nin səhifələrində “Müsəlmanların geri qalmalarının səbəbləri”, “İslam tərəqqiyə mane olurmu?” və digər mövzularda bir-birindən maraqlı materiallar dərc olunurdu.

Daim xalqını düşünən dövrünün görkəmli işıqlı ziyalıları, tanınmış yazıçı və şairləri Mirzə Fətəli Axundov, Seyid Əzim Şirvani, Əhsənül Qəvaid, Heydəri, dövrünün şeyxülislamı olmuş Əhməd Hüseynzadə, Əsgər ağa Görani, Nəcəf bəy Vəzirov və başqaları maraqlı mövzularla qəzetdə çıxış edirdilər. Millətinin, xalqının maariflənməsi üçün yorulmadan qələm çalırdılar.

Həsən bəy Zərdabi iki il ərzində “Əkinçi”si ilə mətbuatın, qəzetin nə olduğunu avam, savadsız xalqa göstərməyi bacardı. Onlarda milli şüurun oyanmasına və formalaşmasına təkan verdi. Ardınca başqa qəzetlərin çap olunması üçün cığır açdı, yol göstərdi. “Əkinçi”dən sonra Tiflisdə Azərbaycan dilində “Ziyayi-Qafqaziyyə”, “Kəşkül” qəzetləri nəşr olunmağa başladı. Qığılcımını, alovunu “Əkinçi” qəzetindən almış bu mətbuat orqanları da, xalqın maariflənməsi üçün böyük işlər gördü.

“Əkinçi” qəzetindən başlanan yol bu gün uğurla davam edir. Dövlətimizin güclü maliyyə dəstəyi sayəsində milli mətbuatımız daim inkişafdadır. İlk mətbuatımızın nəşrə başladığı tarixdən 148 il keçməsinə baxmayaraq, “Əkinçi”dən düşən nur bu gün də yollarımızı işıqlandırır. Həsən bəy Zərdabini və onun “Əkinçi”sini mətbuatımızın bayraqdarı adlandıra bilərik. İllər sonra “Əkinçi”dən yüzlərlə qəzet və jurnal pöhrələyib boy verdi.

*Vahid MƏHƏRRƏMOV*